❒ ***Azərbaycanın otuz ildən artıq bir dövrünü əhatə edən tarixi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində əsaslı dönüş məhz ulu öndərin siyasi fəaliyyətinin nəticələridir. Heydər Əliyevin siyasi kursu, əsasını qoyduğu daxili və xarici siyasət strategiyası Azərbaycanı daim irəliyə aparır. O, ölkəyə rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından rəşadətlə çıxarmışdır.***

Azərbaycan təhsilinin təşkilatçısı və qayğıkeşi

Heydər Əliyev Azərbaycan xalqına təkcə suveren dövlət, möhkəmləndirilmiş müstəqillik, tərəqqi, azadlıq yox, həm də gələcəyə inam və gələcək üçün inkişaf proqramı qoyub getdi. O, dövlətçilik ideologiyasını işləyib hazırladı, onu həyata keçirdi, dövlətin özünü qurdu. Azərbaycanda unitar dövlətçilik ənənələri yaratdı. Azərbaycan dövlətinin bütövlüyünü qoruyub saxlamağın vacibliyi fikrini gələcək nəsillərə təlqin etdi.

Mən bu fenomen şəxsiyyətin çalışdığım təhsil sahəsi ilə bağlı xidmətlərinin bir neçə məqamına toxunmaq istəyirəm. Ümummilli liderimizin çoxcəhətli fəaliyyətində, Azərbaycan xalqına göstərdiyi xidmətlər içərisində onun təhsil və mütəxəssis hazırlığına göstərdiyi qayğı xüsusi yer tutur. Azərbaycan rəhbərinin çoxşaxəli fəaliyyətinin mühüm istiqamətlərindən biri mütəxəssis hazırlığı ilə bağlı idi. O, 1970-ci ildə Azərbaycan gənclərinin keçmiş Sovet İttifaqının ən nüfuzlu ali məktəblərində oxumağa göndərilməsinin əsasını qoydu. Həmin il respublikadan kənarda oxumağa göndərilənlərin sayı 50 nəfər idi.

Ancaq sonrakı illərdə onların sayı get-gedə artırıldı. Bu, o qədər də asan deyildi, cürbəcür maneələr, çətinliklər mövcud idi. Buna baxmayaraq, Heydər Əliyev 70-ci illərin sonunda həmin göstəricinin 900-ə, 80-ci illərin əvvəllərində isə artıq 1400 nəfərə çatdırılmasına nail olmuşdu. Bu, o demək idi ki, sanki bizim Azərbaycandan kənarda ölkəmiz üçün ən gərəkli, kəskin tələbat olan ixtisaslar üzrə mütəxəssislər hazırlayan böyük bir ali məktəbimiz var idi.

Respublikamızda xüsusi ehtiyac olan ixtisaslara yiyələnən o dövrkü gənclərimizin indi müstəqil dövlətimizin təhsil, elm, iqtisadiyyat və mədəniyyət sahələrində tanınmış mütəxəssislər kimi fəaliyyətini görəndə Heydər Əliyev uzaqgörənliyinə heyran qalırsan. Ancaq təəssüflər olsun ki, bu ənənələr 80-ci illərin ikinci yarısı – 90-cı illərin əvvəllərində pozuldu. Respublikamızın o dövrkü başçıları bunların əhəmiyyətini ya qiymətləndirə bilmədilər, ya da müxtəlif subyektiv səbəblərə görə onlardan imtina etdilər. 80-ci illərin axırları – 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana hərbi təcavüzü, eyni zamanda, ölkəmizin daxilində yaranan qarışıqlıq, özbaşınalıq və qanunsuzluqlar üzündən bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də işlər pozulmuş, məktəblərin fəaliyyəti zəifləmiş, bəzi təhsil müəssisələri, ümumiyyətlə, öz işini dayandırmışdı.

Bu illərdə müəyyən qüvvələr hələ ilk addımlarını atan Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (indiki Dövlət İmtahan Mərkəzi) işi haqqında tez-tez yanlış, qərəzli, həqiqətdən uzaq fikirlər söyləyir, böhtan atmaqla əhali arasında test sistemini gözdən salmağa çalışırdılar. Yeni sistemin əleyhdarları elmi dəlillər, sübutlar gətirmək, konstruktiv tənqidlə çıxış etmək əvəzinə, iftira, hədə, təhqir kimi üsullardan istifadə edirdilər. Belə bir şəraitdə hələ çox kövrək olan yeni sistemin dirçəlişinə, inkişafına və möhkəmləndirilməsinə arxa durmaq, siyasi dəstək vermək lazım idi. Bunsuz o, davam gətirə bilməzdi. Ona belə bir dəstəyi yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev verdi. 1993-cü ilin yayında tələbə qəbulunun test üsulu ilə keçirilib-keçirilməyəcəyi barədə müxtəlif fikirlər dolaşırdı. Ölkə rəhbəri test sisteminin mütərəqqi bir yenilik olduğuna inamını ifadə edərək, qəbul imtahanlarının TQDK tərəfindən mərkəzləşdirilmiş qaydada keçiriləcəyini qəti şəkildə bəyan etdi, Komissiyanın fəaliyyətini təkmilləşdirməyin, onu elmi əsaslar üzərində qurmağın, bu sahədə qabaqcıl dünya təcrübəsindən bəhrələnməyin, yeni texnologiyalar tətbiq etməyin vacibliyini bildirdi. Bu qərardan sonra TQDK-nın işində canlanma yarandı.

Ümummilli liderin test sisteminin mütərəqqiliyinə, ədalətliliyinə inamı, onun müdafiəsinə və möhkəmləndirilməsinə göstərdiyi qayğı ölkədə milli qiymətləndirmə sisteminin qurulmasına dayaq oldu. Heydər Əliyevin dövlət rəhbəri kimi imzaladığı ilk sənədlərdən biri "Ali məktəblərə qəbul qaydalarının təsdiq olunması haqqında" 1993-cü il 27 iyun tarixli fərmanı oldu. Fərmana əsasən, qəbul imtahanlarının keçirilməsi ilə bağlı TQDK ilə birgə Hökumət Qərargahı yaradıldı. Sonrakı dövrdə də (1994-1996-cı illər) ali məktəblərə qəbul qaydaları Prezidentin xüsusi fərmanları ilə təsdiq olunurdu və bu, ölkə başçısının test üsulunu, təhsil sisteminin müasirlik istiqamətində inkişafını dəstəkləməsinə dair cəmiyyətə göndərdiyi açıq bir mesaj idi.

İlk illərdə testləşdirmə işi hələ elmi cəhətdən tam qurulmamışdı. TQDK-nın maddi texniki bazası zəif idi. Hələ nə test bankı, nə fənlər üzrə elmi-metodiki seminarlar, nə də ekspert şuraları təşkil olunmuşdu. Bütün bunların həll olunması üçün əsaslı elmi, metodiki, texniki və təşkilati layihələrin işlənib hazırlanması günün vacib tələbi idi. Başqa sözlə, tələbə qəbulu işini bütün istiqamətlər üzrə elmi əsaslar və müasir texnologiyalar əsasında qurub, vahid sistem halına gətirmək tələb olunurdu. 1994-cü ildən etibarən dövlət başçısının yaxından köməyi sayəsində bu problemlərin kompleks şəkildə həllinə başlandı.

Bir neçə il ərzində TQDK-nın təşkilatlanması, qəbul imtahanının elmi cəhətdən əsaslandırılmış məzmununun formalaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, imtahan proseslərinin avtomatlaşdırılması istiqamətlərində mühüm addımlar atıldı. Bununla belə, ulu öndər bizə əldə olunmuş nailiyyətlərlə qətiyyən arxayınlaşmamağı, test sistemini durmadan təkmilləşdirməyi, bu sahədə dünyada mövcud olan qabaqcıl təcrübədən istifadə etməyi, müasir informasiya texnologiyalarını işimizlə bağlı bütün proseslərə tətbiq etməyi tapşırdı.

Heydər Əliyevin respublika rəhbərliyinə qurtuluş missiyalı qayıdışından sonra ölkəmizin tarixində çox böyük yeri olan mütərəqqi ənənə – respublikadan kənarda mütəxəssis hazırlığı ənənəsi də bərpa olundu və daha geniş miqyasda davam etdirilməyə başlandı. Bir neçə il ərzində təhsil sahəsində dövlətlərarası və nazirliklərarası sazişlərə, razılaşmalara əsasən üç mindən çox azərbaycanlı gəncin Türkiyə, ABŞ, Rusiya, Böyük Britaniya, Çin, Koreya, Fransa, Misir, Çexiya, bütövlükdə isə dünyanın 40-a yaxın ölkəsində təhsil almasına nail olundu.

Hər il tələbə qəbulu müsabiqəsində xüsusilə fərqlənərək, ən yüksək nəticə əldə edənlər gəncliyimizin intellektual elitasını təmsil edirlər. Onların təcrübəsi həm cəmiyyətdə, həm də məktəblərdə güclü təsirə malik örnək, nümunə rolunu oynayır.

Bilik öncüllərinə xüsusi diqqət, qayğı göstərmək, onları həvəsləndirmək, inkişaflarına və potensial imkanlarının gerçəkləşməsinə kömək etmək, şərait yaratmaq ulu öndərimizin fəaliyyətində xüsusi yer tuturdu. Prezident Heydər Əliyev 3 sentyabr 2001-ci ildə təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" fərman imzaladı. Həmin fərmana uyğun olaraq, o vaxtdan hər il ölkəmizin ali məktəblərinə qəbul imtahanlarında yüksək nəticə göstərmiş gənclərimiz Prezident təqaüdünə layiq görülür. Çox fərəhli haldır ki, Prezident İlham Əliyevin 2004-cü ildə verdiyi sərəncamla Prezident təqaüdçülərinin sayı artırılaraq, 100 nəfər müəyyən edilib, təqaüdlərin məbləği də artırılıb. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, Azərbaycan gəncliyinin intellektual elitasına göstərilən bu diqqət o vaxt da, indi də maddi stimuldan çox güclü mənəvi dəstək, ruhlandırıcı amil rolunu oynayır, təhsildə sağlam yarış mühitinin yaranmasına təsir göstərir.

Heydər Əliyev təhsil sisteminə həmişə cəmiyyət həyatının ən vacib, strateji əhəmiyyətli bir sahəsi kimi yanaşırdı. O, iqtisadiyyatın da, cəmiyyətin başqa sahələrinin də təhsilə əsaslandığını, onun üzərində qurulduğunu vurğulayaraq göstərirdi ki, əgər bizim yüksək təhsil potensialımız, güclü kadr potensialımız olmasa, biz nə iqtisadi potensiala, nə elmi potensiala, nə də sosial potensiala malik ola bilərik. Yaxşı təhsil – ölkənin gələcək inkişafı üçün yaxşı əsas yaradılması deməkdir. Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə nail olmaq üçün isə təhsil ardıcıl surətdə inkişaf etdirilməlidir.

Ulu öndər tələbə gənclər qarşısında duran məqsəd və vəzifələri müəyyənləşdirərək deyirdi: "Müstəqil Azərbaycanda bilik alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd qoymalıdır. Gərək onlar Azərbaycanın gələcəyi üçün, Azərbaycanda indi bizim apardığımız islahatların gələcəkdə nəticələrini həyata keçirmək üçün, Azərbaycanı daim müstəqil, demokratik, hüquqi, dünyəvi dövlət kimi yaşatmaq üçün, əvvəlkilərdən fərqli olaraq, indi daha da çox bilik alsınlar, müasir həyatı daha yaxşı dərk edə bilsinlər, müasir texnikadan, texnologiyadan istifadə edə bilsinlər. Bu yol ilə də biz Azərbaycanın gələcəyini istədiyimiz kimi görə biləcəyik."

Ümummilli lider təhsil işçilərinin, müəllimlərin ən vacib və təxirəsalınmaz vəzifələrindən bəhs edərək göstərirdi: "... Təhsil sistemimiz Azərbaycanın dövlət müstəqilliyi prinsiplərinə uyğun qurulmalıdır; dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaradılması bu prinsiplərə tabe edilməlidir; Azərbaycanın dövlət müstəqilliyinin atributları yaxşı təbliğ olunmalı və öyrədilməlidir; dövlət müstəqilliyimizin mənası, məzmunu çox geniş tədris olunmalıdır; gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək təhsilin əsas istiqamətlərindən olmalıdır; xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, onları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin ən müqəddəs borcu olmalıdır."

Heydər Əliyev ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu işinə həmişə ölkənin kadr potensialının möhkəmləndirilməsinin mühüm tərkib hissəsi, təhsil işimizin strateji istiqaməti kimi yanaşırdı. O, müasir kompüter texnologiyalarının tətbiq edilməsi vasitəsi ilə həyata keçirilən test üsulunu daha mütərəqqi sistem kimi dəyərləndirərək, onun möhkəmləndirilməsinə, təkmilləşdirilməsinə dəstək verir, qayğı və kömək göstərirdi: "Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra dünya təcrübəsində daha müasir, daha ədalətli hesab olunan test üsulu ölkəmizdə tətbiq olunubdur. Ötən illərin təcrübəsi onu göstərir ki, bu, həqiqətən, mütərəqqi üsuldur. Bütün başqa üsullarla müqayisədə ali məktəblərə qəbul prosesində ən ədalətli üsul kimi tanınmışdır. Ona görə də biz son illərdə bu üsulla Azərbaycan ali məktəblərinə qəbul işlərini təşkil edirik və gündən-günə də təcrübə artır. Bu da, təbii ki, sevindirici haldır".

Bu sözlər Heydər Əliyevin test üsulu ilə tələbə qəbulunu həyata keçirən TQDK-nın işinə verdiyi müsbət qiymət olmaqla bərabər, həm də bütövlükdə təhsil işinə göstərdiyi qayğı və köməyin təzahürüdür. Elə bu qayğının nəticəsidir ki, ötən dövr ərzində Dövlət İmtahan Mərkəzi geniş elmi-metodoloji və texniki potensiala yiyələnib, bütövlükdə Azərbaycan cəmiyyətinə xidmət edən yeni, demokratik tələbə seçimi sistemi yaradılıb. Bu sistem nə qədər möhkəmlənibsə, onun faydalılığı və effektivliyi də bir o qədər artıb, nə qədər təkmilləşibsə, cəmiyyətdəki nüfuzu da bir o qədər yüksəlib və nəticədə cəmiyyətdə biliyin qiymətləndirilməsinin mövcud sisteminin obyektivliyinə, ədalətliliyinə möhkəm inam formalaşıb. Bu isə Azərbaycan təhsilinin müstəqillik illərində qazandığı ən böyük nailiyyətlərdəndir.

Azərbaycan gəncliyinin çağdaş dövrdə öz təhsilini davam etdirmək istəyən bütün dəstələri onlar üçün yaradılan ədalətli, obyektiv və şəffaf qəbul sisteminə görə, ilk növbədə, ümummilli liderimiz Heydər Əliyevə minnətdar olmalıdır. Çünki mərkəzləşdirilmiş qəbul sistemi gənclərimizə köhnə qəbul işinə xas olan mənfi hallara rast gəlmədən öz təhsil almaq arzularını gerçəkləşdirmək imkanı verib.

Bu istiqamətlər üzrə aparılan işlərin əsasında ölkəmizdə bu gün "sosial lift" funksiyasını yerinə yetirən bir sistem fəaliyyət göstərir. Hansı ailədə, şəhərdə, kənddə böyüyüb başa çatmasından asılı olmayaraq, hər bir gənc, bacarığı və oxumaq istəyi varsa, bu sistem sayəsində müstəqil şəkildə imtahana hazırlaşa və ali məktəbə qəbul oluna bilər. Bu gün artıq Dövlət İmtahan Mərkəzinin yaratdığı sistem vasitəsilə hər kəs orta məktəblərdə 9 və 11-ci siniflərdə həyata keçirilən yekun qiymətləndirmə, ali təhsil müəssisələrinə qəbul, daha sonra magistratura və ya rezidenturaya, nəhayət dövlət qulluğuna qəbul imtahanlarında iştirak etməklə öz karyeralarını qururlar. Dövlət İmtahan Mərkəzi "sosial lift" funksiyasını yerinə yetirməklə cəmiyyətimiz, dövlətimiz üçün hazırlanan mütəxəssislərin, yüksək ixtisaslı kadrların yetişdirilməsində və seçilməsində birbaşa iştirak edir.

Tələbə qəbulunda tətbiq edilən müasir qiymətləndirmə sistemi təkmilləşdikcə, onun elmi, texniki və kadr potensialı möhkəmləndikcə Heydər Əliyev bu potensialdan digər sahələrdə də istifadə olunmasını məqsədəuyğun sayır və bununla bağlı müvafiq sərəncamlar verirdi. Bu sərəncamlardan sonra TQDK-nın fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə genişləndi. Mərkəz bir sıra ölkə və beynəlxalq miqyaslı layihələrin iştirakçısı oldu. Bunların bir çoxu informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin sosial, iqtisadi və idarəetmə sahələrinə tətbiqi ilə əlaqədar idi. Belə layihələrdən biri də "2000-ci il problemi" ilə bağlı idi. Ulu öndərin 12 fevral 1999-cu il tarixli sərəncamı ilə TQDK "2000-ci il problemi"nin həlli üzrə işçi orqan – Milli Qurum təyin edildi. Milli Qurumun təşkilatlara göstərdiyi texnoloji yardım və həyata keçirilən qabaqlayıcı tədbirlər sayəsində problemin həlli uğurla başa çatdı, ölkə yeni minilliyə xətərsiz qədəm qoydu.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra dünya təcrübəsində daha müasir, daha ədalətli hesab olunan test üsulu ölkəmizdə tətbiq olunubdur. Ötən illərin təcrübəsi onu göstərir ki, bu, həqiqətən, mütərəqqi üsuldur. Bütün başqa üsullarla müqayisədə ali məktəblərə qəbul prosesində ən ədalətli üsul kimi tanınmışdır. Ona görə də biz son illərdə bu üsulla Azərbaycan ali məktəblərinə qəbul işlərini təşkil edirik. Və gündən-günə də təcrübə artır. Bu da, təbii ki, sevindirici haldır.

Heydər ƏLİYEV
Ümummilli lider

Heydər Əliyev hər bir mütərəqqi yeniliyə qarşı çox həssas və güclü müasirlik duyğusuna malik bir şəxsiyyət idi. 2000-ci ildə onun xüsusi sərəncamı əsasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Mərkəzi yaradılmışdı və o vaxt Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bu layihənin milli əlaqələndiricisi təyin edilmişdi. Çox qısa vaxtda təşkil edilən İnformasiya Mərkəzinin işi ilə yaxından tanış olarkən, ulu öndər bu yeniliyi çox yüksək qiymətləndirmişdi. O, İnformasiya Mərkəzinin işi ilə maraqlanarkən müasir informasiya-kommunikasiya texnologiyasının seçki prosesinə tətbiq edilməsi hadisəsindən dərhal özünəməxsus müdrikliklə nəticə çıxararaq, elə oradaca məsul dövlət xadimlərinə tapşırıq verdi: "Nazirlər Kabineti ilə birlikdə … bu kompüter sistemindən bizim xalq təsərrüfatında, iqtisadiyyatımızda, infrastrukturda, bütün başqa sahələrdə belə səmərəli istifadə etmək üçün bəlkə yeni bir qərar qəbul etmək lazımdır. Çünki artıq bizim təcrübəmiz var və onun müsbət nəticəsini də görürük. Bu sistem insanların əməyini nə qədər yüngülləşdirir… Bizdə artıq iki təcrübə mövcuddur. Birincisi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında, ikincisi isə seçki sistemində. Təbiidir ki, o da özü üçün çox əhəmiyyətlidir. Bu isə həddindən artıq, fövqəladə əhəmiyyətli bir şeydir. Amma eyni zamanda, cığır açır, yol açır ki, bütün başqa sahələrdə biz kompüter sistemini tətbiq edək və işlərimizi də yüngülləşdirək".

Proseslərin məntiqi davamı olaraq, 2002-ci ildə xüsusi sərəncamla TQDK respublikada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində icraçı təşkilat seçilmişdir. TQDK ölkənin digər dövlət və özəl strukturlarının mütəxəssisləri ilə birgə İnformasiya-Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya işləyib hazırladı. Milli Strategiya Respublika Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı ilə təsdiq edildi və bunun əsasında strategiyanın həyata keçirilməsini təmin edən Milli Əməli Fəaliyyət Proqramı tərtib olundu. Həmin illərdə TQDK Milli Strategiya çərçivəsində bir sıra yerli, regional və beynəlxalq miqyaslı layihələrin həyata keçirilməsində iştirak etdi.

Təsadüfi deyil ki, son illərdə DİM öz fəaliyyətinin müxtəlif aspektləri ilə ölkədə informasiya cəmiyyəti quruculuğuna xidmət edən mükəmməl bir sistem yaratmışdır. Müasir İKT texnologiyalarının kütləvi proseslərə tətbiqi sayəsində milyonlarla gəncə, heç bir məmurla təmasda olmadan, DİM ilə virtual formada ünsiyyət qurmağa, informasiya əldə etməyə imkan yaradılmışdır. Artıq uzun illərdir ki, abituriyentlərin ərizə qəbulu, ixtisas seçimi, imtahan nəticələrinin elanı və s. işlər internet vasitəsilə aparılır. "Elektron hökumət" portalının məlumatlarına əsasən, hər il DİM tərəfindən göstərilən elektron xidmətlərdən 5 milyondan artıq istifadə qeydə alınır. Bu isə gənclərin özlərini informasiya cəmiyyətinin üzvləri qismində görməsi, "Elektron Azərbaycan" və "Elektron hökumət" proqramlarının əməli cəhətdən reallaşdırılması və ölkəmizin informasiya cəmiyyətinə keçməsi işinə mühüm töhfələrdir.

Digər tərəfdən, DİM-in elektron xidmətlərindən istifadə vətəndaşların rahatlığının təmin edilməsinə, onların vaxtlarına və maddi resurslarına qənaət olunmasına şərait yaradır.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə məsuliyyətli və demokratik idarəçiliyin yaradılması, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsi, vətəndaşların ehtiyaclarının daha dolğun təmin edilməsi, habelə dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması siyasətinin həyata keçirilməsində də TQDK-ya etibar edirdi.

2000-ci illərdə Prezident Heydər Əliyevin imzaladığı müvafiq fərmanlarla TQDK-ya daha bir neçə mühüm iş – dövlət qulluğuna işə qəbul, məhkəmə hakimi vəzifəsinə və prokurorluq orqanlarına namizədlərin seçilməsi zamanı test üsulu ilə imtahanın keçirilməsi də həvalə olunmuşdu. TQDK bu işlərin öhdəsindən layiqincə gəlirdi.

Sonralar Prezident İlham Əliyevin 19 yanvar 2005-ci il tarixli, 180 nömrəli fərmanı ilə Azərbaycan Respublikası Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı. 2005-2009-cu illərdə dövlət qulluğuna qəbul prosesini (test imtahanı mərhələsini) bu Komissiya ilə TQDK birgə həyata keçirirdi. Lakin TQDK-nın qazandığı nüfuz və etibar 2016-cı ildə dövlət qulluğu sisteminə qəbulun bütün sahələrinin yenidən ona həvalə edilməsini məqsədəuyğun etdi.

Cənab Prezident İlham Əliyevin 2016-cı il 11 aprel tarixli fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ləğv edilərək bu iki orqanın bazasında Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs yaradıldı və hər iki qurumun bütün funksiyaları Mərkəzə həvalə olundu. Artıq Mərkəz dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirir.

Dövlət İmtahan Mərkəzi kimi digər publik hüquqi şəxslərin yaradılması və fəaliyyəti "xidmət institutları" vasitəsilə dövlət idarəçiliyinin optimallaşdırılması, çevikliyin, operativliyin, səmərəliliyin artırılması, vətəndaşlara göstərilən xidmət keyfiyyətinin yüksəldilməsi siyasətinin bir hissəsidir.

Heydər Əliyev beynəlxalq miqyasda, dünya təcrübəsində müsbət, mütərəqqi olan nə varsa, onların milli gerçəkliyimizin xüsusiyyətlərini nəzərə almaqla, ölkəmizdə tətbiq olunmasını tövsiyə edirdi. O, təhsildə qiymətləndirmə prosesinin dünyada qəbul olunmuş standartlara uyğun şəkildə qurulması üçün bu sahədəki dünya təcrübəsindən geniş istifadə edilməsini zəruri hesab edirdi. Biz ulu öndərimizin bu göstərişini rəhbər tutaraq biliyin qiymətləndirilməsi sistemini, imtahan modelini dünya standartlarına uyğunlaşdırmaq üçün davamlı şəkildə təkmilləşdirmə işləri aparmışıq və bu işi indi də davam etdiririk. Son dövrlərdə DİM-in təhsilin qiymətləndirilməsi üzrə beynəlxalq qurumlarla əlaqələri daha da genişlənmişdir. Biz ABŞ-ın "Təhsildə Test Xidməti" təşkilatı, Təhsildə Qiymətləndirmə üzrə Avropa Assosiasiyası və Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya və bir çox digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparırıq.

Ulu öndərimiz demişdir: "Ali məktəblərə daxil olan gənclər Azərbaycanımızın gələcəyidirlər. Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil almış, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər".

Bu gün Azərbaycan xalqı həmin siyasi kursun davam etdirilməsinin tarixi zərurət olduğuna qəti şəkildə əmindir və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin başladığı işləri çox böyük müdrikliklə, qətiyyətlə həyata keçirməkdədir.

Prezident İlham Əliyev məhz bu həqiqətləri qətiyyətlə təsdiq edərək deyir: "Xalqa, millətə xidmət etmək, ölkəmizi gücləndirmək, Azərbaycanın müstəqilliyini gücləndirmək Heydər Əliyev siyasətinin əsas istiqamətləridir. Biz bu siyasətə sadiqik".

Məleykə ABBASZADƏ,
Dövlət İmtahan Mərkəzinin
Direktorlar Şurasının sədri